# Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov Ankarada G20 qrupu ölkələrinin əmək və məşğulluq nazirlərinin toplantısında

*Ankara şəhərində Türkiyə Respublikasının sədrlik etdiyi və dünyanın iqtisadi cəhətdən ən çox inkişaf etmiş 20 ölkəsini əhatə edən G20 qrupuna üzv və dəvət edilən ölkələrin əmək və məşğulluq nazirlərinin toplantısında Azərbaycan nümayəndə heyətinin rəhbəri, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov tədbirin insan resurslarının inkişafına sərmayənin artırılması üzrə "G20 üzrə Bacarıqlar Strategiyası"na həsr olunan sessiyasında çıxış edib*



Nazirliyin ictimaiyyətlə əlaqələr sektorunun məlumatına görə, nazir Prezident cənab İlham Əliyevin uğurlu iqtisadi inkişaf strategiyası nəticəsində müasir infrastruktur və çoxsaylı enerji layihələrinin icrası, investisiya mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun və regionların, sahibkarlığın inkişafı sahəsində əldə olunan nailiyyətlərin ölkədə dayanıqlı iqtisadi artım üçün möhkəm təməl yaratdığını diqqətə çatdırıb. 2004-cü ildə Cənubi Qafqaz iqtisadiyyatının yarısının, 2014-cü ilin sonunda isə 75%-nin Azərbaycanın payına düşdüyünü qeyd edib, Əlavə edib ki, Davos İqtisadi Forumu 2014-cü il üçün hesabatında Azərbaycanı iqtisadiyyatın rəqabətə davamlılığına görə 144 ölkə arasında 38-ci yerə layiq görüb, "Moodys", "Fitch Ratings", "Standart and Poors" kimi reytinq agentlikləri isə ölkəmizin reytinqini davamlı olaraq artırıb.

Nazir bildirib ki, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, dinamik iqtisadi inkişaf, yeni texnika və texnologiyaların həyatın hər bir sahəsində geniş tətbiqi, yeni istehsal üsullarının meydana gəlməsi ölkənin əmək bazarında yüksək təhsil səviyyəsinə malik olan işçi qüvvəsinə tələbatı artırır və bu, ölkənin iqtisadi artımı üçün əsas şərtlərdən birinə çevrilir. İşçi qüvvəsinin keyfiyyətinin yaxşılaşdırılması və rəqabət qabiliyyətinin artırılması, kadr hazırlığı sisteminin təkmilləşdirilməsi, əmək bazarında tələb və təklif arasında dinamik uyğunluğun təmin edilməsi və bütövlükdə insan kapitalının yüksək inkişaf səviyyəsinə nail olunması ölkədə dövlət məşğulluq siyasətinin əsas prioritet istiqamətidir. Bu gün qeyd olunan məqsədlərə nail olmaq üçün beynəlxalq və milli əmək bazarının tələblərinə cavab verən kompetensiyalar əsasında peşə və kvalifikasiya standartlarının tətbiqi işləri görülür. Bu baxımdan, işçi bacarıqlarının formalaşdırılması, inkişafı və istifadəsi üçün əsas prinsipləri müəyyən edən "G20 Bacarıqlar Strategiyası" ("G20 Skills Strategy") Azərbaycan üçün də olduqca aktualdır.

Azərbaycanda işsiz və işaxtaran vətəndaşların, xüsusən həssas əhali qruplarının əmək bazarına daha tez inteqrasiyası məqsədilə məşğulluq orqanlarının institusional və kadr potensialının daim təkmilləşdirildiyini qeyd edən S.Müslümov işsiz vətəndaşların işlə təminatı, peşə hazırlığı və peşəyönümü, əmək yarmarkaları, habelə gənclər üçün xüsusiləşdirilmiş yarmarkalar, əmək birjaları barədə məlumat verib. O, əlilliyi olan şəxslərin məşğulluğunun dəstəklənməsi işlərindən bəhs edərək, sağlamlıq imkanları məhdud gənclər üçün xüsusi təlim proqramlarının və peşə yönümü testlərinin tətbiqi, peşə reabilitasiya mərkəzlərinin yaradılması və s. tədbirləri diqqətə çatdırıb. Nazir həmçinin sosial tərəfdaşlıq prinsipləri əsasında kompleks yanaşmaların, innovasiya elementlərinin tətbiqi ilə daha yüksək keyfiyyətli məşğulluq xidmətlərinin göstərilməsi üçün aparılan işlərdən bəhs edib.

S.Müslümov vurğulayıb ki, Azərbaycan Avropa və MDB ölkələri sırasında demoqrafik baxımdan cavan yaş strukturuna malik az sayda ölkələrdən biridir. Hazırda Azərbaycan əhalisinin 28,5 faizi 15-29 yaşlı gənclərdir.

Azərbaycanda 15-29 yaşda gənclər arasında işsizlik səviyyəsinin 9,7% olmaqla digər ölkələrlə müqayisədə xeyli aşağı olduğunu diqqətə çatdıran S.Müslümov bildirib ki, məhz bu səbəbdən, Azərbaycan gənclərin məşğulluq problemlərinin həlli üzrə dünyada 10 lider ölkə sırasına daxil edilib: "Azərbaycan hökumətinin əsas səyləri dayanıqlı iqtisadi artıma və əhalinin sosial rifahının yüksəldilməsinə, xüsusilə əlilliyi olan şəxslərin, ahılların, qaçqın və məcburi köçkünlərin, sosial müdafiəyə xüsusi ehtiyacı olan digər şəxslərin potensial imkanlarından tam istifadəsi üçün əmək bazarına açıq, inklüziv və bərabər hüquqlu çıxış imkanlarının yaradılmasına yönəldilib. Ölkədə məşğulluq siyasəti daim təkmilləşdirilir.

Nazir bazar iqtisadiyyatının tələblərinə uyğun formalaşmış bilik və bacarıqlara malik olan işçi qüvvəsi vasitəsilə ölkədə dayanıqlı, tarazlaşdırılmış və inklüziv iqtisadiyyatın artımına Azərbaycanın inkişaf konsepsiyasına uyğun olaraq müasir yanaşmalar və innovativ metodlardan istifadə edilərək nail olunacağını vurğulayıb.

Azərbaycanda dayanıqlı inkişafın təmin olunması şəraitində əhalinin məşğulluq imkanlarının artırılması, xüsusən gənclərin məşğulluğu, işsizliyin kəskin şəkildə azaldılması, daha inklüziv əmək bazarının formalaşdırılması, əmək potensialının keyfiyyətcə yüksəldilməsi yönündə aparılan işlər və əldə olunan uğurlar barədə məlumatlar tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

**M.MUSTAFAYEV.**